# NAXÇIVANDA MƏDƏNİ-KÜTLƏVİ TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİNDƏ GƏNCLƏRİN İŞTİRAKI

*30-cu illərdə MR-də ədəbi-mədəni mühitin canlanmasında, mətbuatın, teatr və dramaturgiyanın inkişafında Naxçıvan gəncləri təkanverici qüvvə olmuşlar. Azərbaycan Yazıçılar Cəmiyyətinin Naxçıvan şöbəsində birləşən gənc yazıçıların -M.Təhmasib, N.Nağıyev, M.Nəsirli, Ə.Rəsulzadə, A.Gülməmmədov, Ə.Abbasquliyev, M.Əkbər və b. yaradıcılığı ədəbi-mədəni prosesin inkişafına müsbət təsir göstərmişdi. 30-cu illərin əvvəllərində M.İbrahimovun Naxçıvan MTS-də çıxan "Sürət", Ə.Vəliyevin "Şərq qapısı" qəzetlərinə redaktor təyin edilmələri MR-də ədəbi mühitin inkişafına təkan vermişdir. M.İbrahimovun "Həyat" pyesi ilk dəfə Naxçıvan teatrının səhnəsində tamaşaya qoyulmuşdu. Bu pyesin tamaşası Naxçıvanda az müddət ərzində 25 dəfə göstərilmişdi.[1] Ə.Vəliyev də "Budağın xatirələri" romanında Naxçıvandakı müşahidələrindən faydalanmışdır Hər iki sənətkar Naxçıvan ədəbiyyatının və teatrının fəaliyyəti ilə yaxından maraqlanmış, bu sənət ocağında işin yaxşılaşdırılmasına qayğı ilə yanaşmışlar. Elə bunun nəticəsidir ki, M.İbrahimov və Ə.Vəliyev 1934-cü ildə Azərbaycan yazıçılarının I qurultayına Naxçıvandan nümayəndə seçilmişlər.*

30-cu illərin sonlarına doğru Naxçıvan MSSR-də ədəbtiyyatın inkişafı Məmmədəli Tarverdiyev, Həsən Nağıyev, Ənvər Əylisli, Qurban Qurbanov, Qasım Tağıyev, Hüseyn Əzim, Lətif Hüseynzadə, Əbdül Kazım və başqa istedadların meydana gəlməsinə səbəb oldu. Pedaqoci texnikum, Müəlimlər İnstitutu, gənclər klubu nəzdində həvəskar gənclərin toplandığı ədəbiyyat dərnəkləri fəaliyyət göstərirdi. Gənc yazarların ədəbi yaradıcılığının əsas mövzusu bir qayda olaraq sovet quruluşunun üstünlükləri, xalq düşmənləri ilə mübarizə, siyasi rəhbərlərin (Stalin, Beriya, Bağırov) vəsf edilməsi, sovet vətənpərvərliyi idi. Bu baxımdan Q.Tağıyevin "Kolxozumuz", H.Əzimin "Yasəmənin toyu", M.Yəqubun "Komsomolçu Elşad", S.Sayılovun "Qəhrəman qız", T.Zeynalovun "Stalin" şeirlərini göstərmək olar. Gənc dramaturq, kolxozçu Q.Qurbanovun "Ayrım" əsəri Naxçıvan Dram Teatrında tamaşaya qoyulmuşdu. Əsərdə "xalq düşmənləri" ilə aparılan mübarizə işıqlandırılmışdı. "Şərq qapısı" qəzetində əsərin tamaşaya qoyulması münasibəti ilə qeyd edilirdi ki, "ayrılıqda biz trotskist, buxarinçi, nasional-uklonist və s. faşist köməkləri qalıqlarının dövlətimizə nə kimi ziyanlar vurmağa çalışdıqlarını və sovet vətənpərvərlərinin onlara qarşı inadlı mübarizələrini görürük.[2] Publisistika sahəsində həmin dövrdə M.Nəsirli, M.Tarverdiyev, Ə.Abbasquliyev, Ə.Qəmbərli, R.Ağayev, S.Abbasova, M.Nuriyeva və başqa gənclər uğurla çalışırdılar.

30-cu illərdə Naxçıvanda teatr sənətinin formalaşmasında və inkişafında bir sıra gənc aktyor və recissorlardan İ.Həmzəyev, M.Mirişli, Ə.Haqverdiyev, X.Qazıyeva, F.Əlixanova xüsusi xidmətlər göstərdilər. 30-cu illərdə teatrda C.Cabbarlının "Almaz", "Yaşar", M.İbrahimovun "Həyat", S.Rəhmanın "Toy", S.Vurğunun "Vaqif" pyesləri və s. uğurla tamaşaya qoyuldu. Rayonlarda fəaliyyət göstərən xalq teatrlarının, özfəaliyyət dərnəklərinin əsas təşkilatçıları və üzvləri də gənclər idi.

Göstərilən dövrdə Naxçıvan MSSR-də həm xalq musiqisi, həm də klassik musiqi yanaşı inkişaf etdirilirdi. 30-cu illərin əvvəllərində MR-də xalq çalğı alətləri ansamblları geniş təşəkkül tapmağa başladı. Bu zaman ənənəvi xalq çalğı alətləri ilə yanaşı Avropa alətləri -piano, skripka, mandolina da dəbə düşmüşdü. 1937-ci ildə Ü.Hacıbəyovun təşəbbüsü ilə Naxçıvanda musiqi məktəbinin açılması yeni musiqiçilər nəslinin təşəkkül tapmasına şərait yaratdı.

30-cu illərdə mədəni-maarif müəssisələrinin - klubların, kino qurğularının, kitabxanaların inkişafı gənclərin mədəni səviyyəsinin inkişafında mühüm rol oynadı.

Bədən tərbiyəsi və idman gənclərin sosial-mədəni həyatının tərkib hissəsinə çevrilirdi. 1924-cü ildə MR Bədən Tərbiyəsi Şurası yaradılmış, onun ilk sədri Xəlil Gülməmmədov tərəfindən futbol, yüngül atletika, atıcılıq, akrobatika, ağır atletika, güləş, voleybol, şahmat və başqa idman oyunları təşkil edildi. 1928-ci ildən başlayaraq Naxçıvanın bəzi məktəblərində idman dərsləri keçirilməyə başlandı. Artıq 1930-cu ildə Naxçıvanda 15 nəfər bədən tərbiyəsi və idman mütəxəssisi, 340 nəfər bilavasitə idmanla, bədən tərbiyəsi ilə məşğul olan var idi. 1931-1934-cü illərdə MR-də ƏMH və ƏMHO kompleksi nişançıların hazırlanmasında mühüm işlər görürdü. Gənclər klubu nəzdində müxtəlif idman bölmələri təşkil olunmuşdu. MR-də idman hərəkatının inkişafında İbrahimxəlil Axundov, Mirhəsən Seyidov, Qadir Səmədov, Sultan Qədimov və b. mühüm xidmətlər göstərmişlər. 1938-ci ilin iyul-avqust aylarında Naxçıvan şəhərində bədən tərbiyəsi hazırlayan kurslar təşkil edilmişdi. Kursun rəhbərləri Cəlil Abbasov və D.Babayev idi. İlk buraxılışda kursu 30 nəfər bitirmişdi. 30 nəfər naxçıvanlı Azərbaycan kolxozçularının spartakiadasında yüngül atletika, güləş, voleybol və velosiped yarışlarında iştirak etmişdilər.[3]

1924-cü ildə "Dinamo", 1935-ci ildə "Spartak", 1936-cı ildə "Burevestnik" idman cəmiyyətlərinin yaradılması MR-də bədən tərbiyəsi və idmanın inkişafına təkan verdi. Naxçıvan MSSR-də ilk idman yarışlarının keçirilməsi də 30-cu illərə təsadüf edir. 1934-cü il mayın 25-də Naxçıvan MSSR I Spartakiadasının açılışı oldu. Spartakiadanın keçirilməsi üçün Vilayət Komitəsi yaradılmış, kolxozçuları, fəhlələri, tələbələri əhatə edəcək kontrol rəqəmlər müəyyənləşdirilmişdi. MR üzrə məktəblilər arasında spartakiadalar da bu dövrdən etibarən təşkil olunmağa başlanmışdı.[4]

Beynəlxalq gənclər günü münasibəti ilə rayonlar və idman cəmiyyətləri arasında futbol, voleybol, basketbol yarışları keçirilirdi. Çağırışçılar arasında bədən tərbiyəsi işinin zəif aparıldığını nəzərə alaraq Naxçıvan MSSR XKS yanında Bədən tərbiyəsi və idman işləri Komitəsinin 23 iyun 1937-ci il tarixli qərarı ilə bütün çağırışçıların "ƏMH" əhatə olunmaları vəzifəsi qoyulmuşdu.5 Həmin iclasda bütün bədən tərbiyəsi işçilərinin "Allahsızlar cəmiyyətinə" üzv yazılmaları tələb edilmiş, kolxozçu və məktəblilərin şahmat və şaşki bölmələrinə cəlb edilməsi tapşırıldı.6 1937-ci ildə ağır atletika üzrə Azərbaycan birinciliyi Naxçıvanda keçirilmiş, naxçıvanlı Tahir Məmədov üçüncü yeri tutmuşdu. 1939-cu ildə Naxçıvan-Culfa istiqamətində marafon qaçışında 8 nəfər iştirak etmiş və Qədimov yarışın qalibi olmuşdur.

30-cu illərin sonlarında Naxçıvandan üç nəfər -Yusif Əhmədov, Müzəffər Əsgərov və Kamil Məmmədov Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdılar. 1940-cı ildə MR-də bədən tərbiyəsi və idmanla məşğul olanların sayı 5320 nəfərə çatırdı. 37 nəfər bədən tərbiyəsi kadrı, 61 idman qurğusu var idi.[7]

Naxçıvan gənclərinin hərbi müdafiə işində yaxından iştirakı da 30-cu illərə təsadüf edir. Komsomolun iştirakı ilə MR-də atıcı dərnəkləri və müdafiə ongünlükləri təşkil edilmişdi. Naxçıvan rayon komsomol komitəsinin 42 təşkilatında 200 hərbi manqa və 63 taqım təşkil edilmişdi. Taktiki təlimlərə isə 8000 nəfər gənc, o cümlədən 2000 nəfər qız qatılmışdı. Çağırışçılar arasında savadsızlığının ləğvi üçün dərnəklər yaradılmışdı.[8] OSOAVİAXİM təşkilatlarının sayı 1935-ci ildə 197-dən 229-a çatdırılmışdı.[9] Naxçıvan gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsində Naxçıvanda yerləşən sovet sərhəd qoşunlarına əsas yer verilirdi. Sərhədçilər gənclər arasında söhbət və məruzələr edir, hərbi-idman dərnəkləri, atıcılıq yarışları təşkil edirdilər.

20-ci illərdə Naxçıvanın qız və qadınlarının savad, təhsil səviyyəsinin artırılması sahəsində atılan addımlar onların MR mədəni, ictimai-siyasi həyatında daha fəal iştirak etməsi, qadın azadlığının genişləndirilməsi üçün şərait yaradırdı. Qadınlarla mədəni-kütləvi iş yenə əvvəlki kimi klublar, qadın guşələri və digər mədəni müəssisələr vasitəsilə aparılırdı. Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı, 1935-ci ildə Noraşendə də qadın klubu açılmışdı.[10] Lakin valideynlər, kişilər öz qadınlarını, qızlarını klublara getmələrinə icazə vermədiklərindən Azərbaycanın digər bölgələrinə nisbətən MR-də qadın və qızları klublara cəlb etmək, onları mədəni-kütləvi tədbirlərlə əhatə etmək sahəsində çox ciddi problemlər mövcud idi. Klublar rayon komsomol komitələri tərəfindən himayə edilir, ən fəal qızları oraya rəhbər işə cəlb edirdilər. Məsələn, Siddiqə Abbasova Naxçıvan, Səlbi Əlizadə isə Ordubad rayon klublarının müdirləri kimi qadınlarla kütləvi işin canlanmasında ciddi iş aparırdılar. Klublarda savad, tikiş, musiqi, əl işləri, tibb bacıları kimi kurslar da fəaliyyət göstərirdi. 1937-ci ilin iyununda Naxçıvan MİK qərarı ilə Naxçıvan şəhər qadınlar klubu qadınlar sarayına çevrilmişdi.11 30-cu illərin sonunda artıq Naxçıvanda 1 qadınlar sarayı, 5 qadın klubu, 10 qadın qiraət komaları fəaliyyət göstərirdi.

Göstərilən dövrdə Naxçıvanda qadınların sağlamlığının qorunması sahəsində atılan addımlar qadın siyasətinin mühüm tərkib hissəsi idi. Bu məqsədlə Naxçıvan MİK (sonra isə Ali Soveti) tərəfindən bir çox qanun və qərarlar qəbul edilmiş, 1939-cu ildə təkcə qadınlar üçün 8 mama məntəqəsi, 5 uşaq məsləhətxanası, 9 yaslı, 7 doğum evi mövcud idi. Bu tibb müəssisələrində 144 nəfər qadın tibb işçisi çalışırdı ki, onların 25 nəfəri həkim, 26 nəfəri tibb bacısı, 35 nəfəri mama idi.[12]

MR-də qızların və qadınların azadlığa çıxması, onların ictimai fəallığının artırılması gənclər siyasəti qarşısında duran əsas vəzifələrdən idi. Bu mühüm ictimai vəzifəni yerinə yetirmək üçün qızlarla geniş ictimai, kütləvi təbliğat, maarifləndirmə işləri aparmaq, onların geniş miqyasda ümumi əmək fəaliyyətində, ictimai istehsalda iştirakına nail olmaq lazım idi. Lakin sosial-iqtisadi, mədəni cəhətdən geri qalmış bir regionda, qadın və qızların ictimai proseslərdən kənarda qaldığı bir şəraitdə bu vəzifələrin həlli çox mürəkkəb və çətin idi. 20-ci illərdə MR-də qız və qadınların azadlığa çıxmasında, onların ictimai fəallığının artırılmasında, ictimai istehsala cəlb edilməsində atılmış addımlar sonrakı dövrlərdə də davam etdirilmiş, bəzi çatışmazlıqlara və problemlərə baxmayaraq 30-cu illərdə bu sahədə çox mühüm uğurlar əldə edilmişdi.

Sovet dövlətinin və kommunist partiyasının siyasətinə uyğun olaraq qadın və qızların partiya, komsomol, həmkarlar ittifaqları, yerli sovetlərə daha geniş cəlb edilməsi üçün MR-də müəyyən işlər aparılsa da, onların bu təşkilatlarda sayı çox az idi. Xüsusən MR komsomolunun sıralarında qızların azlıq təşkil etməsi yuxarı orqanların direktivlərində öz əksini tapmış və bu sahədə vəziyyəti yaxşılaşdırmaq Naxçıvan VKK-dən tələb edilmişdi.

1935-ci ildə ÜİLKGİ Zaqafqaziya Ölkə Komitəsinin bürosunda Naxçıvan VKK-nin işi və vəziyyəti haqqında məsələni müzakirə edərkən MR-də gənc qızlarla siyasi-tərbiyə işinin zəif aparıldığını qeyd etmiş, onların mədəni-siyasi cəhətdən boyartımının özbaşına buraxıldığı, MR-də qızlar arasında savadsızlığın yüksək olduğu, məktəbyaşlı qızların məktəbdən kənarda qalmaları, azyaşlı qızların ərə verilməsi, çoxarvadlılıq, qızların dini ayinlərə əməl etmələri, məscidə getmələri, çadrada gəzmələri və digər "neqativ halların" komsomol təşkilatlarının zəif fəaliyyətinin nəticəsi olduğu göstərilmişdir.[13]

ÜİLKGİ MK XI plenumunda qəbul edilmiş qərarlar, o cümlədən milli gənc qadınlar arasında iş haqqında ÜİLKGİ Başqırdıstan Vilayət Komsomol Komitəsinin məruzəsi üzrə qərarı və gənc qadınlar arasında işin yaxşılaşdırılması tədbirləri haqqındakı qərarlarında komsomol təşkilatları qarşısında qızlar arasında tərbiyəvi işin kökündən yaxşılaşdırılması zəruriliyi haqqında məsələ qoyulmuşdu. "Şərq qapısı" qəzetində ÜİLKGİ MK-nın Başqırdıstan komsomolu ilə bağlı qəbul etdiyi qərarına həsr edilmiş məqalədə həmin qərarda göstərilmiş bütün neqativ halların Naxçıvanda da mövcud olduğu göstərilmişdi.[14] Bu qərarlardan sonra MR komsomol təşkilatları qızlarla iş sahəsində bir sıra təşkilati -siyasi tədbirlər həyata keçirdilər. 1935-ci il ərzində MR-in bütün rayon komsomol komitələrində qızlar arasında siyasi, kütləvi, tərbiyəvi işin vəziyyəti müzakirə edilmiş, komitələrin nəzdində qızlarla iş bölməsi yaradılmış, gənc qızların rayon konfransları keçirilmişdi.

15 sentyabr 1935-ci ildə MR gənc qadınlarının ilk əyalət konfransı, həmin il dekabrın 9-da isə Naxçıvan şəhər gənc qadınlarının II konfransı olmuşdu. Bu yığıncaqlarda MR-də gənc qızların və qadınların üzləşdiyi bütün problemlər müzakirə edilmiş, partiya və komsomol təşkilatlarından, sovet orqanlarından bu sahədə fəaliyyətlərində dönüş yaratmaq tələb edilmişdi. MR-də gənc qızlarla işin vəziyyətinə 1935-ci il oktyabrın 5-9-da keçirilmiş gənc qadınların I Ümumazərbaycan qurultayının qərarları da müsbət təsir göstərdi. Qurultayın qərarlarında qızların və gənc qadınların daha qətiyyətlə məsul rəhbər vəzifələrə irəli sürülməsi, onların sənaye, kənd təsərrüfatı işlərinə geniş cəlb edilməsi üçün zəruri şəraitin yaradılması, gənc qadınlar arasında savadsızlığın ləğvi, onların hüquqlarının pozulmasına qarşı kəskin mübarizə aparılması və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.[15] Qurultayda naxçıvanlı gənclər adından müəllimə Səkinə Rzalı çıxış etmiş və MR-də qızlarla işdə olan nöqsanlardan danışmışdı. Bu nöqsanlar arasında qızların savadsızlığı, azyaşlı qızların ərə verilməsi, qızlar arasında mədəni tədbirlərin az keçirilməsi, onlarla işləyə biləcək kadrların yoxluğu, MR-də məktəbəqədər tərbiyə müəssisələrinin olmaması kimi faktlar göstərilmişdi. S.Rzalı çıxışında həmçinin göstərirdi ki, MR komsomolunda qızların sayı çox aşağıdır və texnikumları bitirən qızlar isə ərə getdikdən sonra işləmirlər.[16]

MR-də o zaman qadın siyasəti ilə bağlı ən ciddi problemlərdən biri məktəbyaşlı qızların (9-13 yaşlı) erkən ərə verilməsi idi. Xüsusən Ordubad, Əbrəqunis, Naxçıvan rayonlarında bu hallar tez-tez müşahidə olunurdu. Hüquq-mühafizə, maarif orqanlarından, yerli sovetlərdən bu halları üzə çıxartmaq və təqsirkarlara qarşı inzibati cəza tədbirləri görmək tələb olunurdu. O dövrün qəzetlərində öz qızlarını erkən yaşda ərə verən valideynlərin, belə qızlara evlənən kişilərin adları dərc edilir və onlar ictimai qınaq obyektinə çevrilirdilər. Kiçik qızlarla evlənən partiyaçı və ya komsomolçunu isə daha ağır cəzalar gözləyirdi. Bir sıra hallarda müəllimlər azyaşlı məktəbli qızlarla ailə qururdular. Naxçıvan RKK bürosunun "Qızlar arasında siyasi-tərbiyəvi işin genişləndirilməsi haqqında" qərarı ilə öz tələbəsini alan və təhsildən ayıran müəllimlərin məsuliyyətə cəlb edilməsi ilə bağlı prokurorluq qarşısında məsələ qaldırılmışdı. Eyni məzmunlu qərarlar digər rayon komsomol komitələri tərəfindən də qəbul edilmişdi.

30-cu illərin II yarısında antidin siyasətinin sərtləşməsi dindar qadınlara münasibətdə xüsusilə kobud şəkildə təzahür edirdi. Qızların dini ayinlərə əməl etməmələri üçün bütün qadağanedici vasitələrdən istifadə edilirdi. Din əleyhinə, çadra ilə mübarizədə sərt metodların tətbiqinə baxmayaraq bu mübarizənin səmərəsi heç də yüksək deyildi. Baxmayaraq ki, MR-də dövlət orqanlarında, ictimai yerlərdə çadrasız gəzmək

tələb olunurdu. Bu tələbə isə çox riayət olunmurdu. Kənd yerlərində isə mənəvi-dini dəyərlərə qarşı mübarizə daha kəsərsiz idi.

30-cu illərdə qızların və gənc qadınların siyasi fəallığının əsas göstəricilərindən biri onların seçkilərdə aktiv və passiv iştirakı idi. Yerli sovetlərdə qadınların iştirakını təmin etmək üçün 25%-lik kvota tətbiq edilirdi. Bir çox fəal qızlar rəhbər partiya, komsomol və sovet işinə irəli çəkilmişdilər. Azərbaycan LKGİ MK bürosunun 14 aprel 1937-ci il tarixli qərarına uyğun olaraq bütün rayon komsomol komitələrinin üçüncü katibləri qızlardan seçilməyə başlandı.[17] Artıq bu dövrdə MR-də 154 komsomol təşkilat katibinin müavini, 18 komitə katibi qız idi.[18] Bütün bunlara baxmayraq MR-də qadın və qızların ictimai-siyasi proseslərə cəlb olunması, onların azadlığa çıxması prosesi yenə də günün tələblərindən geri qalırdı. Bu barədə Azərbaycanın qadın gənclərinin II qurultayında (13-17 yanvar 1939-cu il) da bəhs edilmişdi. Xüsusən kiçik qızların erkən ərə verilməsi, qızların sosial fəallığına mane olan amillərin hələ də mövcud olması haqqında konkret faktlar gətirilirdi. Bir qayda olaraq VVAQ şöbələri kiçik qızları nişanlanarkən onların yaşlarını artırır, hüquq-mühafizə orqanları isə qanunsuzluğa göz yumurdular.[19] Həmin qurultayda naxçıvanlı nümayəndələr adından Bəni Həsənova və V.Kolesnikova soyadlı qızlar çıxış etmişdilər.

Azərbaycanın gənc qadınlarının qurultayının qərarları ilə bağlı MR komsomol təşklatlarında xüsusi müşavirələr keçirilmiş, qızlar arasında siyasi-tərbiyə işini gücləndirmək, qadın hüquqlarının pozulmasına qarşı mübarizə aparmaq, gənc qızları rəhbər vəzifələrə (xüsusilə məhkəmə və prokurorluq işinə) daha geniş surətdə irəli çəkmək, qızları ictimai istehsala cəlb etmək, onlardan ixtisaslı kadrlar hazırlamaq, onlara münasibətdə feodal-təhkimçilik qalıqlarını aradan qaldırmaq, məktəbyaşlı qızların təhsildən yayınmalarının qarşısını almaq və s.məsələlər geniş müzakirə edilmişdi. Yerli təşkilatlardan qızların komsomola daha geniş dəlb edilməsi üçün onlar arasında siyasi-təbliğat, təşviqat işini gücləndirmək tələb edilirdi. Naxçıvanda qız və qadınların hüquqlarının pozulmasında, onların ictimai və sosial fəallığının artırılmasında MR qəzetləri xüsusi rol oynayırdılar. "Şərq qapısı" və digər qəzetlərdə tez-tez qadınlarla iş sahəsində nöqsanlardan danışılır, partiya, sovet, komsomol orqanlarının fəaliyyəti tənqid olunurdu. 1938-ci ilin dekabrında "Azərbaycan qadını" və "Şərq qapısı" qəzetlərinin oxucu qadınlarının Naxçıvan şəhərində keçirilmiş müşavirəsində MR qadın və qızlarının rastlaşdığı problemlər müzakirə olunmuşdu.[20]

Naxçıvan VKK 1938-ci ilin dekabrında keçirilmiş IV plenumunda isə Sədərək, Bənəniyar və Nehrəm kolxozlarında kolxozçu qızlar arasında kütləvi siyasi və tərbiyə işinin vəziyyəti müzakirə edilmiş, məsələ ilə bağlı qərarlar qəbul edilmişdi.[21] Bunun üçün birinci növbədə qızlar arasında savadsızlığın ləğvi işi sürətləndirildi. Lakin bütün səylərə baxmayaraq 1939-cu ilin sonlarında MR-də hələ də 2546 nəfər savadsız və 3500 nəfər azsavadlı qadın var idi.[22]

Müharibə ərəfəsində MR-də yüzlərlə qadın rəhbər vəzifələrdə çalışırdı. Onlar arasında sovet sədri, kolxoz sədri, maarif müdirləri var idi. 1940-cı ildə 12 nəfər qadın kənd sovetinin sədri işləyirdi. Bu zaman Xanım Məmmədova kolxoz sədri, Təyibə Məmmədova Ordubad RKK-nin katibi, Əfrus İsmayılova Culfa rayon maarif şöbəsinin müdiri, Ə.Həsənova Naxçıvan MSSR prokurorunun müavini, Tutu Quliyeva Çapayev kolxozunun sədri vəzifəsinə irəli çəkilmişdilər. Sonralar MR-in ictimai-siyasi həyatında mühüm rol oynamış bir çox qadınlar - Səkinə İsmayılova, Məsumə Nuriyeva, Rübabə Talıbova, Təyyubə Xəlilova, Səkinə Rzayeva, Zeynəb Əsgərova, Səkinə Rzalı məhz 30-cu illərdə ilk dəfə olaraq yüksək vəzifələrə irəli çəkilmişdilər.

20-30-cu illərdə Naxçıvan MSSR-də sənayenin və kənd təsərrüfatının inkişafı, yeni istehsal sahələrinin istifadəyə verilməsi qadın və qızların kütləvi şəkildə istehsala cəlb edilməsinə şərait yaratdı. MR-in yeyinti, yüngül sənayesində, mədəniyyət və maarif sahəsində qadınların nisbi faizi getdikcə artırdı. Onları ictimai istehsala daha geniş cəlb etmək üçün işə qəbul edilənlər arasında onlara kvota ayrılmışdı.

Kollektivləşmə kəndli qadın və qızların istehsala cəlb edilməsinin əsasını qoydu. Bir sıra sosial-dini amilləri nəzərə alaraq ilk dövrlərdə xüsusi qadın manqaları, briqadaları təşkil edilmişdi. Artıq 1931-ci ildə 2000-dən çox qadın kolxoza cəlb edilmişdi. Qadınlardan kənd təsərrüfatı rəhbərləri hazırlamaq üçün 1937-ci ildə 30 nəfərlik kolxoz sədrləri və 30 nəfərlik hesabdar hazırlayan 6 aylıq qadın kursları təşkil edilmişdi.[23] 1938-ci ildə Naxçıvan MSSR-də 15 nəfər qız traktorçu kimi çalışırdı. Kolxoz sədrləri, briqadirlər, manqa başçıları, ferma müdirləri arasında çoxlu gənc qadın var idi.[24] Artıq 1940-cı ildə Naxçıvanda 17.339 nəfər qadın kənd təsərrüfatı sahəsində çalışırdı.[25] Bu vaxt 150 briqada və manqa başçısı qadın idi.[26]

1939-cu ilin yayında SSRİ Ali Soveti deputatlarının müraciətinə əsasən və ÜİLKGİ MK SSRİ XTK və sovxoz komissarlığının qərarına cavab olaraq Naxçıvan RKK-nin təşəbbüsü ilə 50 nəfər qız əvəzinə 80 nəfər qız traktorçular kursuna yazıldılar. Həmin ildə Naxçıvan şəhərində daha 118 nəfər qız bu kurslara cəlb edildi.[27]

***Bütövlükdə, müharibə ərəfəsində Naxçıvan MR-də qadın və qızların mədəni-maarif səviyyəsinin, ictimai fəallığının artması, onların ictimai-siyasi proseslərə, ictimai istehsala cəlb edilməsi prosesi dönməz xarakter almışdı. Bunun məntiqi nəticəsi olaraq onlar cəmiyyətin tam hüquqlu üzvləri kimi MR-in inkişafında getdikcə daha mühüm rol oynamağa başlamışdılar.***

**Həmzə CƏFƏROV,**
*Naxçıvan Dövlət Universitetinin dosenti*

ƏDƏBİYYAT

1. Şərq qapısı, 1934, 11 dekabr.
2. Yenə orada, 1939, 17 yanvar.
3. Yenə orada, 1938, 15 iyul.
4. Naxçıvan MRDA, f.74, s.1, iş 16, iş 127, iş 36, s.21.
5. Yenə orada, iş 71, s.7.
6. Yenə orada, s.18.
7. Əliyev M. Naxçıvan MR-də bədən tərbiyəsi və idman hərəkatı. Naxçıvan, Əcəmi, 1939, s. 9-10.
8. Şərq qapısı, 1939, 10 iyun.
9. Yenə orada, 18 oktyabr.
10. Azərbayjan arxivi, 1973, №2.
11. Şərq qapısı, 1937, 8 iyun.
12. Yenə orada, 1939, 8 mart.
13. Yenə orada, 1935, 21 aprel.
14. Yenə orada, 21 may.
15. ARDSPİHA, f.158, s.9, iş 21, v.16-21.
16. Yenə orada, s.4, iş 2220, v. 4- 4 arxa.
17. Yenə orada, f.1, s.74, iş 465, v.32-34.
18. Şərq qapısı, 1938, 15 iyul.
19. ARDSPİHA, f.158, s.9, iş 19, v.63, 72.
20. Şərq qapısı, 1938, 26 dekabr.
21. Yenə orada, 21 dekabr.
22. Yenə orada, 1939, 3 dekabr.
23. Yenə orada, 1937, 8 iyun.
24. Yenə orada, 1938, 8 mart.
25. Yenə orada, 1940, 10 iyul.
26. Yenə orada, 1938, 8 aprel.
27. Yenə orada, 1939, 22 avqust.